

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 165 (23.076)

4 sentyabr 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 3-də Çolpon-Ata şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olub.

* * *

Qırğız Respublikasının Çolpon-Ata şəhərindəki Çingiz Aytmatov adına "Rux Ordo" Mədəniyyət Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov Sammitdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov, Azərbaycan Prezidenti İlham Əliyev və digər dövlət və hökumət başçıları çıxış ediblər.

Sonra nümayəndə heyətlərinin rəhbərləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitinin Bəyannaməsini və Şuranın yeni baş katibinin seçilməsi ilə bağlı sənədləri imzalayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri sentyabrın 3-də başa çatıb.




## Nəqliyyat sahəsinin dinamik inkişafı təmin edilmişdir

*Muxtar respublikada həyata keçirilən uğurlu siyasət müasir nəqliyyat sisteminin qurulmasını və inkişafını təmin etmişdir. Ötən dövrdə nəqliyyat sektorunun dinamik inkişafını sürətləndirən və müasir nəqliyyat infrastrukturunun qurulması istiqamətində dövlət dəstəyi nəticəsində muxtar respublikanın yol infrastrukturu yenilənmiş, yeni yollar salınmış, körpülər tikilmiş, hava və dəmir yolu nəqliyyatının infrastruktur təminatı yaxşılaşdırılmışdır.*

Belə ki, muxtar respublikanın blokada şəraitindən çıxaraq qonşu ölkələrlə xarici ticarət əlaqələrinin genişləndirilməsində, İpək Yolunun bir hissəsi olan beynəlxalq yük və sərnişin daşımalarında mühüm rol oynayan 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 32,4 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolları yenidən qurulmuşdur. Bundan əlavə, ötən dövr ərzində 88,8 kilometr uzunluğunda Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu da yenidən qurularaq istifadəyə verilmişdir.

Həmçinin Culfa rayonunda uzunluğu 57,6 kilometr olan, 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd avtomobil yolu, Kəngərli rayonunda uzunluğu 39,2 kilometr olan, 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu, Babək rayonunda uzunluğu 25,6 kilometr olan, 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolu, uzunluğu 25,4 kilometr olan, 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu yenidən qurulmuşdur. Son on ildə muxtar respublikada 1305 kilometr uzunluğunda yeni avtomobil yolları salınmış, 51 körpü tikilmiş, 17 körpü isə əsaslı təmir olunmuşdur.

Əhaliyə nəqliyyat xidmətinin göstərilməsi və nəqliyyat sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində Naxçıvan şəhərində şəhərdaxili marşrutlarda əhalinin rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yeni avtobuslar alınaraq muxtar respublikaya gətirilmiş, rayon mərkəzlərinə və bütün kəndlərə iritutumlu və rahat avtobuslarla gediş-gəliş təmin edilmişdir. Həmçinin ötən dövrdə müasir avtobus parkı istifadəyə verilmiş, Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində müasir avtovağzal kompleksləri inşa olunmuş, sərnişin daşınması istiqamətində mühüm yenilik kimi İran ərazisindən keçməklə Naxçıvan-Bakı marşrutu fəaliyyətə başlamışdır.

Muxtar respublikada nəqliyyatın mühüm sahələrindən olan hava nəqliyyatının inkişafı istiqamətində də ötən dövrdə kompleks tədbirlər həyata keçirilmiş, yeni aerovağzal kompleksi tikilib istifadəyə verilmişdir. Naxçıvan Beynəlxalq Hava Limanında yeni inzibati bina inşa olunmuş, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması, təyyarə uçuşlarının təhlükəsizliyinin tam təmin edilməsi məqsədilə Şərq və Qərb terminalları istifadəyə verilmişdir. Yenidənqurma işlərindən sonra hava limanının illik sərnişin və yükdaşıma dövriyyəsi xeyli artmış, aerovağzal binasından istifadə edən sərnişinlərin sayı saatda 600 nəfərə çatdırılmışdır.

Beynəlxalq Hava Limanında yüklərin təhlükəsiz daşınması və qəbulu istiqamətində karqo terminalı yenidən qurulmuş, maşın və mexanizmlər üçün qaraj kompleksinin yaradılması başa çatdırılmışdır. Bundan əlavə, ötən dövrdə Şərur və Ordubad şəhərlərində aviakassa binaları istifadəyə verilmişdir.

Muxtar respublikada nəqliyyatın digər bir sahəsi olan dəmir yolunun inkişafı üzrə də mühüm tədbirlər həyata keçirilmiş, infrastruktur yenidən qurulmuşdur. Belə ki, son dövrdə Naxçıvan, Şərur, Culfa, Şahtaxtı sərnişin vağzalı binalarında, Naxçıvan, Vəlidağ, Nehrəm, Dəstə, Dərəşam, Culfa, Qıvraq, Şahtaxtı stansiyalarının idarəetmə mərkəzlərində və digər inzibati və yardımçı binalarda əsaslı təmir işləri aparılmışdır.

Həmçinin Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və Radiorabitə sexi binası əsaslı təmir edilərək istifadəyə verilmiş, dəmir yolu keçidləri yenidən qurulmuş, yeni dəmir yolu keçidi salınmışdır.

Ötən dövrdə qonşu ölkələrlə iqtisadi əlaqələrin daha da dərinləşməsinə xidmət edən Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı fəaliyyətə başlamış, 3 ədəd yeni sərnişin vaqonu alınaraq muxtar respublikaya gətirilmişdir.

2018-ci ilin yanvar-iyun aylarında nəqliyyat sektorunun bütün sahələri üzrə 7495 min ton yük, 47 milyon 693 min nəfər sərnişin daşınmışdır ki, bu da 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə 88,7 və 98,1 faiz çoxdur.

***Nəqliyyat sektorunda yük və sərnişin daşınması***




Yük və sərnişin daşınmasından, bütövlükdə, 26 milyon 904 min manat gəlir əldə olunmuşdur ki, bu da 2008-ci ilin müvafiq dövrü ilə müqayisədə 98,6 faiz çoxdur.

Cari ilin ötən dövrü ərzində müasir yol infrastrukturunun qurulması məqsədilə Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyi yaradılmış və agentliyin yeni inzibati binası istifadəyə verilmiş, yeni texnikalar alınmışdır. Şərur rayonunda Xanlıqlar-Vərməziyar-Ərəbyengicə-Qarahəsənli-Çəmənli avtomobil yolu, Kəngərli rayonunun Qarabağlar kəndində avtomobil yolu yenidən qurulmuşdur.

Naxçıvan şəhərdaxili avtomobil yollarının yenidən qurulması, iki asfalt-beton zavodunun quraşdırılması və 400 yerlik avtomobil parkının tikintisi davam etdirilmişdir.

Culfa-Ordubad magistral avtomobil yolunun, Şərur rayonunun İbadulla-Qışlaqabbas, Kosacan, Babək rayonunun Aşağı Buzqov və Yuxarı Buzqov, Ordubad rayonunun Dəstə, Culfa rayonunun Qazançı, Şahbuz rayonunun Ağbulaq kəndlərində avtomobil yollarının yenidən qurulması davam etdirilmişdir.

Əhaliyə göstərilən nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində cari ilin iyul ayında 5 yeni avtobus gətirilərək Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə təqdim olunmuşdur.

Muxtar respublikanın dəmir yolu təsərrüfatı 8 yeni sərnişin vaqonu ilə təmin olunmuş, Ordubad dəmir yolu sərnişin vağzalı binasının, Ordubad yol sahəsinin inzibati binasının və 4 saylı yol məntəqəsi binasının tikintisi, Ordubad Stansiya İdarəetmə Mərkəzinin əsaslı təmiri başa çatdırılmışdır. Culfa stansiyasında İstismar Vaqon Deposunun tikintisi, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binasının əsaslı təmiri davam etdirilmişdir.

Bütün bu göstəricilər onu deməyə əsas verir ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu müasir nəqliyyat sisteminin inkişafı Naxçıvan Muxtar Respublikasında bundan sonra da uğurla davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

*Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bu gün özünün dinamik inkişaf dövrünü yaşayır. İqtisadi sahədə ildən-ilə qazanılan uğurlu nəticələr hazırda muxtar respublikanın dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirməklə yanaşı, ümumi daxili məhsul istehsalının həcminin də artmasına müsbət təsirini göstərir.*

## Ümumi daxili məhsul istehsalının həcminin artması sahibkarlığa dövlət dəstəyinin göstəricisidir

Məlumdur ki, ümumi daxili məhsul ölkə daxilində müəyyən zaman intervalında istehsal olunan məhsul və xidmətlərin bazar dəyəridir. Bu interval il və yaxud rüblər əsasında götürülür. Eyni zamanda ümumi daxili məhsulda istehsalın həcmi ölkənin sərhədləri daxilində ölçülür. Məsələn, muxtar respublikanın hər hansı bir şirkəti, deyək ki, Türkiyədə fəaliyyət göstərirsə, onun istehsal etdiyi məhsul və ya göstərdiyi xidmət Türkiyənin ümumi daxili məhsulunda əks olunacaq. Ümumilikdə götürsək, ümumi daxili məhsulun həcmi parametrinə görə ölkə iqtisadiyyatının güzgüsü rolunu oynayır.

Aydın məsələdir ki, ölkə iqtisadiyyatı o zaman inkişaf etmiş və yaxud etməkdə sayılır ki, iqtisadiyyat istehsal üzərində qurulsun. İstehsal üçün isə ilk növbədə, maddi mənbələr və insan resursları lazımdır. Digər tərəfdən, bu mənbə və resursların istifadəsi üçün münbit şəraitin olması, eyni zamanda dövlətin istehsalçılar üçün yaratdığı imkanlar zəruri amillərdəndir.

Sevindirici haldır ki, ölkəmiz 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə başladı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu milli iqtisadi kurs və bu kurs əsasında bazar iqtisadiyyatına keçid qısa müddətdə Azərbaycanın, eləcə də muxtar respublikamızın dünya iqtisadiyyatına inteqrasiyasını təşkil etdi. Ekspertlər hər zaman ölkə iqtisadiyyatının inkişaf parametrlərinə toxunarkən müstəqillik dövründən bu günümüzədək keçilən yolu iki mərhələyə bölürlər. Birincisi, 1991-1995-ci illəri əhatə edən iqtisadi durğunluq və islahatlar dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü.

Naxçıvan Muxtar Respublikasında da təmin olunmuş makroiqtisadi sabitlik nəticəsində son illərdə iqtisadiyyatın dinamik inkişafı təmin olunub, yaradılmış istehsal müəssisələri hesabına yerli məhsulların həcmi xeyli artıb. Bu da, öz növbəsində, muxtar respublikada ümumi daxili məhsulun həcmində özünü göstərir. Muxtar respublika iqtisadiyyatında ümumi daxili məhsul istehsalını ayrıca olaraq illər və ya rüblər üzrə götürsək, bu dinamikanı daha əyani şəkildə görə bilərik. Məsələn, ilk dəfə 2013-cü ilin birinci yarısında muxtar respublikada ümumi daxili məhsulun həcmi 1 milyard manata yaxınlaşıb. Daha dəqiq desək, 2013-cü ilin yanvar-iyun aylarında ümumi daxili məhsulun həcmi 975420,6 min manat təşkil edib ki, bu da bir il öncəki müvafiq göstəricini 9,3 faiz üstələyir. Həmin dövrdə hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2271,6 manat (2894,9 ABŞ dolları) səviyyəsində olub. 2014-cü ilin ilk 6 ayında isə bəhs olunan məhsulun həcmi 1 milyard 14 milyon 85 min manat təşkil edib. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-iyul aylarında isə muxtar respublikada ümumi daxili məhsulun istehsal payı 1 milyard 505 milyon 444 min 900 manata çatıb. Bu isə 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Eyni zamanda hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artaraq 3318 manatı ötüb.

Əvvəlki illərdə olduğu kimi, cari ilin yanvar-iyul aylarında da yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Bu dövrdə sənaye üzrə 621 milyon 450 min manat dəyərində məhsul istehsal edilib. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

Qeyd etmək lazımdır ki, bu gün muxtar respublikada sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanlarının yaxşılaşdırılması yerli məhsul istehsalında önəmli rol oynamaqdadır. Təkcə bu ilin ilk 7 ayında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 30 milyon 760 min 400 manat məbləğində kreditlər verilib. Verilmiş kreditlərin 3 milyon 141 min 800 manatı və yaxud 10,2 faizi qısamüddətli, 27 milyon 618 min 600 manatı və yaxud 89,8 faizi uzunmüddətli kreditlər olub. Həyata keçirilən iqtisadi tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikada 382 növdə məhsul istehsal olunur. Bunun 126 növü ərzaq, 256 növü isə qeyri-ərzaq məhsullarıdır. Əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Beləliklə, ümumi daxili məhsul istehsalının həcminin artması muxtar respublikada sahibkarlığın inkişafına göstərilən davamlı dövlət dəstəyinin əyani göstəricisidir.

✍ **Səbuhi HƏSƏNOV**

*40 yaşlı Babək rayonu sosial-iqtisadi inkişaf tempinə görə muxtar respublikanın digər bölgələrindən heç də geridə qalmır. İldən-ilə genişlənən tikinti-quruculuq tədbirləri nəticəsində daha da müasirləşir, gözəlləşir və rayonun bütün kəndləri ümumi inkişafdan öz payını alır. Bu gün, demək olar ki, bölgənin bütün kəndlərində tikinti-quruculuq tədbirləri aparılıb və ən ucqar dağ yaşayış məntəqələri belə, müasir görkəmə gətirilib.*

*Müasirləşən kəndlərimiz*

# İnkişaf edib abadlaşan yurd yerimiz
# Güznüt



Rayonun inkişaf edən və müasirləşən kəndlərindən biri də Güznütdür. Kənd Araz çayının sol sahilində, Naxçıvan-Əbrəqunus-Əlincə-Qazançı-Boyəhməd yolu üzərində, Babək qəsəbəsindən 10 kilometr aralıda yerləşir. AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, mərhum Adil Bağırov öz araşdırmalarında qeyd edir ki, "Güznüt" adına müxtəlif dövrlərə aid arxiv sənədlərində rast gəlirik. 1827-1828-ci illərdə baş vermiş rus-İran müharibəsi zamanı Güznüt kəndindən 52 ailə Naxçıvanın ayrı-ayrı kəndlərinə köçüb, burada yaşayış olmayıb. Bunu görən Abbas Mirzə hər güznütlüyə, bütünlüklə, səkkiz min manat gümüş pul təyin edib, ətraf ərazilərdən buraya ailələr köçürülüb. Həmin dövrdə yaşayış olmayan qonşu Çeşməbasar kəndinin ərazisindən güznütlülər əkin sahələri kimi istifadə edib, ancaq az sonra vaxtilə kənddən köçmüş ailələr geri qayıdıb, yaşayış təmin edilib.

Alim belə qənaətə gəlir ki, Güznüt kəndi mənfur erməni cəlladlarının hücumlarına məruz qaldığı üçün 1905-1907-ci illərdə yenidən boşalıb, əhalinin xeyli hissəsi (əsasən, qadınlar və uşaqlar) başqa yerlərə köçürülüblər. Ancaq naxçıvanlıların qəhrəmanlığı sayəsində daşnak Andranik ərazidən qovulduqdan sonra yurd-yuvasından didərgin düşmüş əhali geri qayıdıb.

Kəndin ağsaqqallarından Mehbalı Mustafayevin bu yurd yerinin tarixi və adət-ənənələri haqqında söhbəti maraqlı oldu. Mehbalı müəllim bildirdi ki, Güznütün tarixi qədimdir. Mən də hələ o vaxt ağsaqqallardan eşitmişdim ki, çar Rusiyası dönəmində bu kəndə bir neçə erməni ailəsi köçürülüb. Daşnakların törətdiyi qırğınlar zamanı həmin ermənilər onlara xüsusi köməklik göstəriblər. Ancaq kəndin igid, mərd oğulları ermənilərə şiddətli müqavimət göstərərək onları kənddən qovub çıxarıblar.

Kənd meydanındakı tut ağaclarının yaşı bir neçə əsrə bərabərdir. Bu da kəndin tarixinin qədimliyinin əyani sübutudur. Əhali, əsasən, kənd təsərrüfatı, əkinçilik və heyvandarlıqla məşğul olur. Dövlətimiz tərəfindən də bu sahələrdə çalışan insanlara daim köməklik göstərilir. Onu da qeyd edim ki, "Güznüt" sözünün mənası da elə əkinçiliklə əlaqədardır. Belə ki, Naxçıvan dialektində güznüt "payız əkini" deməkdir.

Həmsöhbətim sevinc hissilə bildirir ki, kəndimiz ildən-ilə gözəlləşir və müasirləşir. Aparılan tikinti-quruculuq tədbirləri nəticəsində kənd məktəbinin binası əsaslı şəkildə yenidən qurulub, maddi-texniki bazası gücləndirilib. Bundan əlavə, kənd mərkəzi, həkim ambulatoriyası, yeni xidmət mərkəzi də tikilərək əhalinin istifadəsinə verilib.

Güznüt kəndinin torpaq mülkiyyətçiləri ilə də həmsöhbət olduq. Onlardan biri də uzun illərdir ki, alın tərini torpağa axıdaraq ruzi qazanan Fikrət Hacıyevdir. Təsərrüfat adamı ilə bu kəndin əkinçiliyinin dünənindən, bu günündən danışdıq. Fikrət dedi ki, bura əvvəllər quraqlıq olduğundan əhali, əsasən, dəmyə üsulu ilə torpaqlarını becərirdi. Artıq son illərdə dövlətimizin qayğısı nəticəsində suvarma kanallarının çəkilməsi, əkin sahələrinin su ilə təmin olunması, sahibkarlara dəstək olaraq subsidiyaların verilməsi nəticəsində əhali istədiyi kimi əkir və becərir. Kənd adamları burada yerli iqlim şəraitinə uyğun məhsuldar toxum sortlarına, şırım üsulu ilə əkinlərə üstünlük verir, sahələrə ilboyu aqrotexniki qaydalara uyğun qulluq göstərir, zərərvericilərə qarşı mübarizə tədbirləri aparırlar. Nəticədə, sahələrdə bol və sağlam məhsul hasilə gətirilir. Məhsulun vaxtında və itkisiz yığılması üçün rayonda əvvəlcədən genişmiqyaslı hazırlıq işləri görülür. Bu ilin məhsuluna gəldikdə isə, onu deyə bilərəm ki, bu torpaq üz qaraltmaz. Məhsulumuz ildən-ilə daha da artır, biz əkinçilər də hər il ötən ilə nisbətən daha həvəslə işləyirik. Artıq əkinçilər məhsulu toplanmış taxıl sahələrini küləş və digər ot qalıqlarından təmizləyib, yay şumu qaldırılması ilə məşğuldurlar.

Yazımızın əvvəlində qeyd etdiyimiz kimi, bu kənd igidlər oylağı, ərənlər yurdudur. Qarabağ müharibəsi əlili Müslüm Əliyev də onlardan biridir. Biz də onunla həmsöhbət olmaq üçün evlərinə üz tutduq. Çox xoş qarşılandıq, Müslüm müəllim dedi ki, ölkəmizdə müharibə veteranları, şəhid ailələri fiziki sağlamlığını itirən müharibə əlilləri üçün hər cür şərait yaradılıb. Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı döyüşlərdə fiziki sağlamlığını itirmiş vətəndaşlar, həmçinin İkinci Dünya müharibəsi əlilləri, hərbi xidməti vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslər, 20 Yanvar və Çernobıl əlillərinin mənzil-məişət şəraitləri günbəgün yaxşılaşdırılır. Onlara yeni mənzillər, avtomobillər verilir. Bu qəbildən olan insanların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır, müalicələri diqqət mərkəzində saxlanılır. Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir. Mən də dövlətimiz tərəfindən ev və maşınla təmin olunmuşam. Bu gün səhhətimdə yaranan hər bir problemlə maraqlanır və təmənnasız müalicə zonalarına göndərirlər. Bizə göstərilən bu qayğı insanın ürəyini dağa döndərir. Yaşımın ötməsinə baxmayaraq, işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda hər an canımdan keçməyə hazıram.

Güznütdə sakinlərin asudə vaxtlarının səmərəli təşkil olunması üçün mədəniyyət evi də fəaliyyət göstərir. Mədəniyyət evinin direktoru Zülfüqar Babayev deyir ki, burada bütün yaş qrupları üzrə dərnəklər təşkil olunub. Kənd sakinlərinin də dərnəklərimizə marağı çox yaxşıdır. Onu da qeyd edim ki, vaxtilə biz çox pis şəraiti olan binalarda fəaliyyət göstərsək də, artıq bu gün dövlətimiz tərəfindən maddi-texniki baza ilə təmin olunmuş yenidən tikilən yaraşıqlı binada işimizi davam etdiririk. Dəfələrlə üzvlərimizin əl işləri ilə müxtəlif müsabiqələrə qatılıb fəxri fərman və diplomlara layiq görülmüşük.

Maraqlı insanlar ilə dəyərli söhbətlərdən sonra kəndin görməli yerlərini gəzdik. İlk olaraq kəndin aşağı hissəsindəki çeşmə haqqında sizə məlumat vermək istəyirəm. Deməli, yayda buz, qışda isti suyu olan bu çeşmənin mənbəyi hələ də heç kimə məlum deyil. Sakinlərin dediyinə görə, illər öncə suyun mənbəyini tapmaq üçün bura mütəxəssislər gəlib. Uzun sürən axtarışlar heç bir nəticə verməyib. Mütəxəssislər üçün də, yerli sakinlər üçün də suyu gözyaşı qədər duru olan bu çeşmə sirr olaraq qalıb. Yolunuz bu kəndə düşsə, mütləq həmin çeşməyə gedin.

Kəndin ən görməli yerlərindən biri də min bir zəhmətlə salınmış meşədir. Sakinlərin əsas istirahət yeri sayılan meşəni güznütlülər göz bəbəkləri kimi qoruyurlar və meşədəki ağacların sayını artırmaq, gələcək nəsillərə gözəl bir dünya ərməğan etmək üçün iməciliklər keçirir, yeni ağaclar əkirlər.

Kənddəki sosial-iqtisadi inkişafı görmək üçün, sadəcə, buraya gəlmək lazımdır. Gələrkən qəsəbə görkəmli kənd ilə qarşılaşacaqsınız...

**Pərviz HACILI**

*İstehsal müəssisələri*

# Keyfiyyətli məktəbli formasının tikildiyi ünvan – "Zümrüd Tikiş" Məhdud Məsuliyyətli Cəmiyyəti

*Artıq yay tətilinin bitməsinə sayılı günlər qalıb və övladı məktəbli olan hər bir valideyni məktəb ləvazimatları, geyim forması almaq qayğısı bürüyüb. Məktəbli forması almaq üçün üz tutacağımız ünvan isə məlumdur: "Zümrüd Tikiş" Məhdud Məsuliyyətli Cəmiyyəti. Keyfiyyətli məktəbli formasının tikildiyi bu ünvan fəaliyyəti ilə muxtar respublikada alıcı rəğbəti qazanmış istehsal müəssisələrindən biridir.*



Bu günlərdə yolum həmin müəssisəyə düşmüşdü. Müəssisənin direktoru Mehrəngiz Əkbərova ilə söhbət zamanı o qeyd etdi ki, 1997-ci ildə 6 nəfər işçi ilə və cəmi 10-12 ədəd Rusiya istehsalı olan avadanlıqlarla fəaliyyətə başlamışıq.

Hazırda müəssisədə Almaniya, Yaponiya və Türkiyə istehsalı olan 70 adda ən müasir biçim, ölçü, ütü və tikiş avadanlıqları quraşdırılıb, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib.

Müəssisə rəhbəri deyir ki, 2010-cu ildə 560 min manat vəsait ayrılması sayəsində 2011-ci il sentyabrın 9-da gündəlik istehsal gücü 150 dəst kostyum olan müəssisənin yeni binası və kostyum istehsalı sahəsi istifadəyə verildi.

Sifariş verilən xüsusi geyim formalarının kompleks şəkildə istehsal edilməsi məqsədilə 2013-cü ildə müəssisədə yeni – köynək istehsalı sahəsi yaradılıb. Bu məqsədlə biznes-plan hazırlanıb təqdim olunub. Layihənin reallaşması üçün Sahibkarlığın İnkişafı Fondundan 165 min manat güzəştli kredit ayrılıb. Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki Əcəmi 39 ünvanında yerləşən binada yeni istehsal sahəsi yaratmaq üçün təmir-bərpa və yenidənqurma işləri aparılıb. Binada istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, iaşə xidməti göstərilməsi üçün yeməkxana və inzibati heyət üçün ayrı-ayrı iş otaqları yaradılıb. Yaponiya və Türkiyə istehsalı olan müasir texnoloji



avadanlıqlar quraşdırılıb. Türkiyənin "Talay makina" şirkəti ilə müqavilə bağlanıb. İstehsal gücü gündə 1000 ədəd köynək olan yeni istehsal sahəsi yaradılıb ki, bu da daxili bazarın tələbatını tamamilə ödəmə gücünə malikdir.

Onu da bildirək ki, müəssisə rəhbəri 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında keçirilən "Ən fəal işəgötürən" müsabiqəsi üzrə ikinci yerə sahib olub.

Yeni tədris ili ilə əlaqədar təhsil müəssisələrindən qəbul edilən sifarişlər artıq təhvil verilib. Onu da qeyd edək ki, istehsal olunan məhsullar muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, həmçinin rayon mərkəzlərindəki mağazalarda satılır. Eyni zamanda məktəbli formaları həm də hər il olduğu kimi, builki məktəbli yarmarkasında da müştərilərə təklif edilir.

Xüsusi geyim sahəsində olarkən öyrəndik ki, gün ərzində onlara ölçüləri hazır geyimlərə uyğun olmayan 30-35 şagird müraciət edir. Sifarişlər çox olsa da, gecikmələr olmur. Kollektiv çalışır ki, üzərinə götürdüyü öhdəliyi vaxtında yerinə yetirsin.

Müəssisənin direktoru Mehrəngiz Əkbərova onu da bildirdi ki, yaxın günlərdə yeni bir sahə açmaq məqsədi ilə biznes-plan hazırlanıb. Onun reallaşması üçün Sahibkarlığın İnkişafı Fondundan 320 min manat güzəştli kredit ayrılıb. Yeni müəssisədə gündəlik 800-1000 dəst olmaqla, alt paltarları istehsal olunması nəzərdə tutulub. Burada 10-15 işçi üçün də iş imkanı yaradılacaq. "Zümrüd Geyim" Məhdud Məsuliyyətli Cəmiyyəti adı altında fəaliyyətə başlayacaq müəssisə üçün nəzərdə tutulan obyektdə təmir-tikinti işləri başa çatdırılmaqdadır, yaxın vaxtlarda müəssisə fəaliyyətə başlayacaq.

Bu gün müəssisə təkcə muxtar respublikanın orta məktəblərinin şagirdləri üçün geyim formalarının istehsalı ilə məşğul olmur. Burada həm də Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərindən, eləcə də Ədliyyə Nazirliyinin Penitensiar Xidmətindən, "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxsdən və Sanitar Təmizlik İdarəsindən sifarişlər qəbul edilir, onlar üçün xüsusi geyim formaları tikilir.

Muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin inkişafına yaradılan şərait öz bəhrələrini verməkdədir. Bəhs etdiyimiz "Zümrüd Tikiş" MMC də belə şəraitdən bəhrələnərək öz uğurlarını artırır.

**Ramiyyə ƏKBƏROVA**

*"Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən abonentlərə göstərilən xidmət yaxşılaşdırılır, istehlakçılar fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin olunurlar.*

# "Naxçıvanqaz" İstehsalat Birliyi işini günün tələblərinə uyğun qurur

Birliyin mətbuat xidmətindən aldığımız məlumata görə, istehlakçılara verilən təbii qazın dayanıqlı olması üçün sistemin müasirləşdirilməsi işinin davam etdirilməsi məqsədilə istismarda olan təzyiq və qaztənzimləyiciləri, daşıyıcı və paylayıcı qaz kəmərləri, nəzarət-ölçü cihazları, digər texnoloji avadanlıqlar yenilənir.

Görülən işlər çərçivəsində "Modul" qazpaylayıcı stansiyasında olan ROC-407 qaz sayğacını əvəz edən Almaniya istehsalı G-650 markalı Elstertipli 2 ədəd qaz sayğacı quraşdırılıb. Onlardan 1 ədədi istismara verilməklə digəri ehtiyatda saxlanılıb. Həmin qaz sayğacları üçün qaz nəqli proseslərinin uzaq məsafədən idarə edilməsi və operativ nəzarət üzrə informasiya – ölçü qeydiyyat sistemi yaradılıb. Naxçıvan şəhəri üzrə dairəvi yeraltı ortatəzyiqli dy-273 millimetr olan paylayıcı qaz kəməri üzərində korroziyaya qarşı mühafizə üçün katod elektrokimyəvi mühafizə qurğusu quraşdırılıb.

Qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində təşkil olunan qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsi üzrə ixtisasartırma kursları təşkil olunub. Kursu bitirən müdavimlərə sertifikatlar verilib.

Bu dövrdə muxtar respublikada tikilən və ya yenidən qurulan binalar, müxtəlif təyinatlı obyektlərdə qazlaşdırma işləri yerinə yetirilib. Birliyin nəzarət-ölçü cihazlarının kalibrlənməsi laboratoriyası qrafik üzrə qaz təsərrüfatında istismarda olan nəzarət-ölçü cihazlarının kalibrlənmə işlərinin metroloji təminatını keyfiyyətli, təhlükəsiz həyata keçirib.

Muxtar respublikanın şəhər, rayon Qaz İstismar idarələrinin qəza-dispetçer xidmətlərinə istər əhali, istərsə də qeyri-əhali təbii qaz istehlakçıları tərəfindən qaz sızması, qazın təzyiqinin düşməsi, tənzimləyicilərin dayanması və digər bu kimi səbəblərə görə 7 min 352 ədəd çağırış daxil olub. Çağırışlara əsasən fasiləsiz təbii qazın nəqli bərpa edilib, kənar müdaxilələrdən qorunması məqsədilə mexaniki qaz sayğacları üçün 26 min 631 ədəd mühafizə qutusu quraşdırılıb.

Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilir. Ümumilikdə, 17 min 151 ədəd, cari ildə isə 575 ədəd smartkarttipli qaz sayğacı və mühafizə qutusu quraşdırılıb.

Qaz şəbəkəsində qazın təzyiqinin texnoloji rejimə uyğun nəqlini və normal istismarını təmin etmək üçün 34 ədəd yeni, müxtəlif markalı qaztənzimləyiciləri, siyirtmələri və nəzarət-ölçü cihazları quraşdırılıb. Anbarda odorant maddəsinin ehtiyatının qaz sərfinə uyğun tələbata görə olması təmin edilib.

**Xəbərlər şöbəsi**

# Böyük Britaniya vətəndaşı Paul Fişer sosial şəbəkələrdə Naxçıvan barədə yazdı







***Bu il avqustun 29-da Böyük Britaniya vətəndaşı Paul Fişer Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur. O, ölkəsinə qayıtdıqdan sonra "Facebook" və "Instagram" sosial şəbəkələrindəki səhifələrində Naxçıvan Muxtar Respublikası barədə məlumatlar paylaşmışdır. Paul Fişer Naxçıvanın Nuh Peyğəmbərin vətəni olması ilə bağlı yazır: "Əfsanəyə görə, Nuh Peyğəmbərin gəmisi Ağrıdağı (Türkiyə ərazisində) istiqamətinə hərəkət etmiş, sonra Haçadağa dəymiş və dağın qayalıq zirvəsində haça yaranmışdır. Naxçıvanın Nuh Peyğəmbərin vətəni olması iddia edilir. Şamın atasının ölümünü təsdiq edən bir çox məzarlardan biri də burada inşa olunmuşdur".***

Naxçıvan tarixinə nəzər salan əcnəbi qonaq daha sonra qeyd edir: "Naxçıvan xanlığı Cənubi Qafqazda müstəqil xanlıqlardan biri olmuşdur. Xan sarayı Naxçıvan şəhəri ərazisində inşa olunmuşdur. Bu növ tikililəri Şəki, Krım və Baxçasarayda görmək olar. Türkmənçay müqaviləsi Araz çayının sahillərində fars və rus imperiyalarının sərhədlərini müəyyənləşdirdi. Sonradan bolşeviklər Naxçıvanı Azərbaycanın əsas hissəsindən ayırdılar ki, Türkiyə ilə sərhəd əlaqələri kəsilsin. Zəngəzur kimi tanınan ərazi 1920-ci ildə bolşeviklər tərəfindən Ermənistana verildi. Bu fakt hazırda da böyük narazılıq yaratmaqdadır.

Naxçıvan dəhşətli dərəcədə tətbiq edilmiş blokadadan əziyyət çəkmişdir. Coğrafi mövqeyi baxımından Azərbaycanın əsas hissəsindən ayrı düşdüyü üçün Naxçıvanda elektrik enerjisi, su və ərzaq çatışmazlığı hökm sürmüşdür. Bu gün isə vəziyyət tam fərqlidir. Tikilmiş yeni yollar, binalar və bərpa edilmiş tarixi abidələr Naxçıvanda inkişaf edən infrastrukturdan xəbər verir. Bununla yanaşı, Haçadağa gedən yolda naxçıvanlılar yolun kənarında həyətlərində yetişdirdikləri məhsulları satırlar".




Daha sonra Böyük Britaniya vətəndaşı növbəti paylaşımında qeyd edir: "Bu il Azərbaycan Respublikası müstəqilliyinin 100 illiyini qeyd etdi. Azərbaycan Respublikası müstəqilliyini SSRİ-dən yox, onların sələfi olan Rus İmperiyası dövründə elan edib. 1918-1920-ci illərdə İslam Şərqində ilk parlamentli demokratik respublika Azərbaycanda qurulub. Azərbaycanda beynəlxalq seçki hüququ Amerika Birləşmiş Ştatları və Böyük Britaniyadan öncə tətbiq olunub. Bu hökumət öncüllük və dünyəviliyi ilə Azərbaycan daxilində çox yüksək rəğbət qazanmışdı. 1920-ci ilin aprelində bolşeviklər tərəfindən bu respublikanın müstəqilliyinə son qoyuldu".

Qədim yurd yeri Qarabağlar kəndində olan qonaq kənddən fotoşəkillər paylaşaraq yazır: "Bu şəkildəki Qarabağlar türbəsinin adını daşıyan sakit kənddir. Səmərqənd şəhərindəki Bibi xanım abidəsinin minarəsinə oxşayan minarələr son dövrlər təmir olunaraq əvvəlki vəziyyətinə qaytarılmışdır".






***Tarixən müxtəlif kənd təsərrüfatı bitkilərinin becərilməsi ilə məşğul olan ata-babalarımız bitkilərin və onların becərildikləri torpaqların xarakterinə yaxından bələd olmuş, hansı ərazidə hansı sahənin daha məhsuldar olduğunu illər boyu öyrənmiş və bu sahələr ənənəvi məşğuliyyət sahəsinə çevrilmişdir.***

*Tarixdən bu günə*

# Naxçıvanın ənənəvi kənd təsərrüfatı sahələri tarixi mənbələrdə



Naxçıvanın tarixi iqtisadi coğrafiyasının öyrənilməsi üçün ən mühüm mənbələrdən biri, şəksiz ki, hələ XVIII əsrdə Naxçıvanda II Osmanlı idarəçiliyi dövründə tərtib edilmiş "Naxçıvan sancağının müfəssəl dəftəri"dir. Dəftəri osmanlıcadan Azərbaycan dilinə tərcümə edərək nəşr etdirən akademik Ziya Bünyadov və Hüsaməddin Qaramanlının da qeyd etdikləri kimi, müfəssəl və icmal dəftərlər Naxçıvan sancağının XVI-XVIII əsrlərdə kənd təsərrüfatının vəziyyətinin öyrənilməsi baxımından çox qiymətli mənbələrdir.

Dəftərdəki məlumatlarla tanışlıq göstərir ki, o zaman Naxçıvanda kənd təsərrüfatının ən geniş yayılmış sahəsi taxılçılıq idi. Həmin dövrdə Naxçıvan sancağının bütün nahiyə və kəndlərində bu təsərrüfat sahəsi ilə məşğul olunmuşdur. Buğda, arpa, darı, demək olar ki, bütün kəndlərdə əkilmişdir. Dənli bitkilərdən düyü, mərcimək, maş və noxudun əkilib-becərilməsi ilə bağlı məlumatlar isə xüsusi maraq doğurmaqdadır.

Araşdırmalar göstərir ki, bəzi hallarda noxud, kəlül, kərsənə kimi bitkilər Naxçıvan şəhəri ətrafındakı dizələrdə, Bənəniyar, Kırna, Saltaq, Əbrəqunus, Göydərə, Xoşkeşin, Gal, Şurud, Badamlı, Türkeş, Qaraçuq və Axura kəndlərində becərilmişdir. Əhəmiyyətli ədviyyat bitkisi sayılan sumağın Naxçıvanın, demək olar ki, əksər kəndlərində yetişdirilməsi ilə bağlı məlumatlar da xüsusi maraq doğurur. Bu məhsulun da Naxçıvan şəhəri ətrafındakı dizələrdə, Hacıvar, Badaşqan, Uzunoba, Şıxmahmud, Didivar, Kültəpə, Kırna və digər ərazilərdə daha çox əkilməsi ilə bağlı qeydlər vardır.

Müxtəlif mənbələrdən aydın olur ki, Əbrəqunus, Nurs, Kükü, Gömür, Cəhri, Nehrəm, Yaycı (Şərur) kimi yaşayış məntəqələrində həm də paxla bitkisi becərilmişdir. Mərcimək bölgənin Bənəniyar, Kırna, Saltaq, Əbrəqunus, Qazançı, Nəhəcir, Qahab, Şahbuz, Külüs, Badamlı, Türkeş, Qaraçuq, Bist, Çənnəb, Axura kimi yaşayış məntəqələrində, lobya və maş bitkiləri isə Ordubad rayonunun bəzi kəndlərində və Nehrəmdə yetişdirilmişdir.

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə diqqətçəkən məqamlardan biri bölgədə çəltikçiliyin xüsusi təsərrüfat sahəsi kimi mövcud olması ilə bağlıdır. Şərur rayonunun bir neçə yaşlı sakini ilə söhbətimiz zamanı Arpaçay boyunca yerləşən, suyu bol olan ərazilərdə bir vaxtlar düyü əkinləri ilə bağlı aldığımız məlumat da bunu təsdiq etdi.

Qeyd edək ki, çəltikçilik təkcə Arpaçay boyunca yerləşmiş ərazilərdə deyil, Naxçıvan şəhəri ətrafındakı dizələrdə, Culfada, Sirab, Qahab, Cəhri, Kültəpə, Bənəniyar, Saltaq, Ərəzin kəndlərində də əhalinin əsas təsərrüfat sahələrindən biri olmuşdur.

Bəhs etdiyimiz dövrdə Naxçıvan ərazisində kələm və bostan məhsulları, əsasən, Naxçıvan şəhəri ətrafındakı dizələrdə, Uzunoba, Şıxmahmud, Kırna, Əbrəqunus, Göydərə, Camaldın, Ərəzin, Nehrəm, Ağbulaq, Qarabağlar, Qaraçuq, Üstüpü, Vənənd, Dəstə, Yaycıda (Culfa) yetişdirilirdi. Cəhri, Hacıvar, Badaşqan, Didivar, Ərəzin, Sirab, Kükü, Gömür, Ağbulaq, Payız, Əlahi, Tivi, Parağa, Biləv, Üstüpü, Çənnəb, Vənənd, Yuxarı Əylis, Yuxarı Əndəmic, Şahbulaq kəndləri həm də meyvəçilik üzrə ixtisaslaşmışdır.

Mənbədə əksini tapmış məlumatlar göstərir ki, bu dövrdə Naxçıvan diyarı həm də pambıqçılıq, üzümçülük, tənbəki əkinləri üzrə seçilən ərazilərdən olub. Pambıq bitkisi Naxçıvan şəhəri ətrafındakı dizələrdə, Hacıvar, Yarımca, Uzunoba, Şıxmahmud, Didivar, Kırna, Ərəzin, Güznüt, Sirab, Vayxır, Qahab, Şahbuz, Payız, Cəhri, Qarabağlar, Bulqan, Culfa kimi yaşayış məntəqələrində becərilirdi.

Bu yerdə bir haşiyə çıxaraq qeyd edək ki, hələ XII-XIII əsrlərdə Naxçıvanda pambıqçılığın və pambıq parça istehsalının – bəzzazlığın inkişaf etdiyini göstərən faktlar mövcuddur. Məsələn, Naxçıvan ərazisində mövcud olmuş orta əsr Əncan şəhərinin adı və əhalisinin məşğuliyyəti ilə bağlı son dövrlərdə aparılmış tədqiqatlarda bir məsələ xüsusilə diqqətimizi çəkdi. "Əcaib əd-dünya"da Əncan haqqında verilən məlumatlardan aydın olur ki, "Oranın malları incə parçalar, yaylıqlar, keyfiyyətli üst örtükləri, zilə corablardan" ibarət olmuşdur.

Burada işlədilən "zilə corab" ifadəsindən aydın olur ki, bu, orta əsrlərdə yerli əhalinin geniş istifadə etdiyi ayaq geyim növlərindən biri idi. Dəqiqləşdirməli olduğumuz bir məsələ də vardır. Fikrimizcə, corabın təyinedici sözü olan ifadə "zilə" deyil, "şilə" və ya "silə"dir. Şilə pambıqdan toxunan parçanın xüsusi növü olmuşdur. Üçcildlik "Azərbaycan etnoqrafiyası"nın II cildində bu barədə oxuyuruq: "XVI-XVIII əsrlərin ənənəvi geyim tipləri haqqında məlumatlar dastan yaradıcılığında da, xüsusilə məhəbbət dastanlarında öz əksini tapmışdır. Burada geyim materialı kimi yun (şal), ipək (atlas, qumaş, darayı və sair), kətan, pambıq (şilə, satin və çit) parçalardan tikilmiş köynək, don, ənbərçə, duvaq, çəpkən, nimtənə, xalat, tuman, kələğayı, çalma, çarqat, niqab və sair kimi qadın geyimlərinin mövcudluğunun şahidi oluruq".

Digər bir qeyddən dəqiqləşdirmək mümkündür ki, bütün pambıq parçalara da "şilə" deyilməmiş və bu parça növünün rəngi qırmızı olmuşdur. Həmin parça növü nisbətən ucuz parça növü sayılmaqla daha çox kasıb təbəqə tərəfindən istifadə edilmişdir.

Mənbələrdə rast gəldiyimiz məlumatlardan belə bir nəticəyə gəlmək olar ki, orta əsr Əncan şəhəri həm də ölkənin əsas bəzzazlıq (pambıq parça toxuma sənəti) mərkəzlərindən biri olmuşdur.

Bu gün də inkişafına xüsusi diqqət yetirilən üzümçülük sahəsi tarixən Naxçıvanda əsas təsərrüfat sahələrindən biri sayılmış və aparılan tədqiqatlar göstərir ki, burada üzümün çoxsaylı sort və növləri yayılmışdır. "Naxçıvan sancağının müfəssəl dəftəri"nə görə, bu bitki XVIII əsrdə, demək olar ki, bölgənin əksər yaşayış məntəqələrində, xüsusilə Naxçıvan şəhəri ətrafındakı dizələrdə, Ordubadda, Kültəpə, Bənəniyar, Kırna, Saltaq, Əbrəqunus, Göydərə, Xoşkeşin, Şurud, Qazançı, Camaldın, Göynük, Şahbuz, Badamlı, Cəhri, Axura, Yaycı (Şərur), Bist, Üstüpü, Çənnəb, Yuxarı Əndəmic, Yuxarı və Aşağı Əylis kəndlərində geniş sahələrdə əkilmişdir.

Tütün cinsinə aid bitki növü olan tənbəki bitkisi Yarımca məzrəsi, Şıxmahmud, Didivar, Kültəpə, Saltaq, Tumbul, Göydərə, Payız, Cəhri, Qarabağlar, Bulqan, Yuxarı Əylis, Aşağı Əylis və Yaycı (Şərur) kəndlərinin təsərrüfatlarında önəmli yerə sahib idi.

Naxçıvan bu dövrdə həm də arıçılıq, qoyunçuluq və maldarlığın inkişaf etdiyi bölgələrdən idi. Arıçılıq, əsasən, dağlıq və dağətəyi bölgələrdə inkişaf etmişdi. Kırna, Saltaq, Əbrəqunus, Göydərə, Xoşkeşin, Gal, Şurud, Qazançı, Camaldın, Göynük, Külüs, Kükü, Gömür, Badamlı, Buzqov, Tumbul, Əlahi, Tivi, Parağa, Biləv, Yuxarı Əndəmic, Yaycı (Şərur) arıçılıq sahəsində seçilən yaşayış məntəqələri idi.

İribuynuzlu heyvandarlıq Göydərə, Xoşkeşin, Gal, Şurud, Qazançı, Sirab, Cəhri, Nehrəm, Yuxarı Əylis, Axura kəndlərində, qoyunçuluq isə Hacıvar, Badaşqan, Şıxmahmud, Didivar, Saltaq, Göydərə, Bist, Xoşkeşin, Gal, Şurud, Nehrəm, Qazançı, Ərəzin, Göynük, Nəhəcir, Sirab, Külüs, Kükü, Badamlı, Türkeş, Payız, Cəhri, Qaraçuq, Əlahi, Tivi, Biləv, Yuxarı Əndəmic, Axura, Yaycı (Şərur) kimi kəndlərdə əsas təsərrüfat sahələrindən biri idi.

Beləliklə, yuxarıda qeyd olunanlar sübut edir ki, Naxçıvanda orta əsrlərdə də müxtəlif kənd təsərrüfatı məhsulları becərilmiş, arıçılıq, üzümçülük, pambıqçılıq, heyvandarlıq kimi sahələr əsas təsərrüfat sahələri içərisində xüsusi yer tutmuşdur.

Gülcamal TAHİROVA

*Etnoqrafiyamız*

# Çoban, bir tütək çal, mələşən quzular yamaca ensin...

***Elə ki təbiət silkələnib qış mürgüsündən birdəfəlik ayıldı, dağlarımıza, düzlərimizə yaşıl rəng qədəmlərini qoymağa başlayır. Bütün qışı tövlələrdə saxlanılan qoyun-quzu da təbiətin oyanışını hiss edir sanki. Şahbuz rayonunun Gömür kənd sakini, 50 ildən artıq çobanlıqla məşğul olan Fərman Qurbanov deyir ki, qoyun-quzunun çöl vaxtı gəlib çatdımı, onlar bunu "hiss edirlər", onların tövlədə mələşmə səsləri kəsilmir. Bu vaxt ot tam gəlməsə də, dünyagörmüşlərimiz deyərdilər ki, qoyun-quzunun ruzisi qışda qarın altında qalır, yaz açılanda onlar həmin otları axtarıb, tapıb qidalanırlar.***

Artıq martdan bəri neçə aydır ki, Dədə Qorqud yurdu olan, dumanı belinə kəmər, zirvəsi göylə birləşən dağlarımıza mirvari dənələri kimi səpələnən qoyun-quzular təbiət incisi olan bu yerlərin gözəl görüntüsünü bir qədər də artırıb. Yaylaqların, yamacların xoş ətri ətrafa yayılan bol otundan-avarından yeyib bulaqların, çeşmələrin saf suyundan içən, təmiz havasında bəslənən bu heyvanların əti, südü, qatığı, qaymağı, bulaması, dələməsi, şoru, pendiri, təbii ki, damaqların dadına çevrilir. Saçaq-saçaq yunundan yorğan-döşək, köynək, əlcək, corab hazırlanır, evlərimizin bəzəyi olan xalı, gəbə, kilim, cecim, palaz, heybə, xurcun toxunur, dərisindən musiqi alətləri və başqa əşyalar, geyim vasitələri istehsal edilir. Qoyunu ev heyvanları arasında ən faydalısı, həyətlərimizə yaraşıq, ruzi-bərəkət mənbəyimiz hesab edən elimizin-obamızın dünyagörmüşləri tərəfindən zaman-zaman bu misralar yaranıb:

*Qoyunlu evlər gördüm,*
*Qurulu yaya bənzər,*
*Qoyunsuz evlər gördüm,*
*Qurumuş çaya bənzər.*

Şahbuz rayonunun Aşağı Qışlaq kəndində yaşayan İslam baba deyirdi: – Qoyun-quzu, keçi evin bərəkəti, həyət-bacanın yaraşığıdır. Allah heç bir evə bunların yoxluğunu qismət eləməsin. Qoyunsuz evlərə kənddə hamı kasıb, ruzisiz ev kimi baxır. Kənd camaatı o evlərdə yaşayanları tənbəl, işbilməz adam hesab edər ki, sən nə qədər bacarıqsızsan ki, əlinə beş-on qoyun-quzu sala bilmirsən. Bilirsən, qızım, qoyun bəlädir ki, evində heç nə olmasa da, gündəlik ağartın var. Çörəyini doğra, ye. Elə ikinci cahan müharibəsinin qıtlıq illərində camaatı aclıqdan qurtaran vasitələrdən biri də bu heyvanlar oldu. Onların südü uşağın da, böyüyün də ruzisinə çevrildi.

Belə ruzi, bərəkət mənbəyi olan heyvanların saxlanmasında, cins tərkibinin yaxşılaşdırılmasında daim sürü yanında olan çoban əməyinin əvəzi yoxdur. Çobanlıq qədim peşədir. Hər bir peşə kimi, çobanlığın da özünəməxsus sirli-soraqlı dünyası vardır. Elin varını, bərəkətini artıran bu peşənin mahir ustaları min illərdir, dədə-babadan qalma bu sənəti yaşadır.

Budur, elimizdə "qara yaz" deyilən vaxtdan – mart ayından bəri çobanlar elin sərvəti olan qoyun-quzu sürülərini dağlarımızın, yaylaqlarımızın güllü-çiçəkli, yaşıl otlaqlarına sürüb, hər axşam onları bol südlə geri qaytarırlar. Şahbuz rayonunun kəndlərindəki "Üçqardaş", "Camal qalası", "Papaqlı dağ", "Gəlin qayası", "Salvartı", "Portdan", "Leyli yurdu", "Cici yurdu", "Dovşan yatağı", "Çatdodaq", "Məşədi Kərim yurdu", "Koladəy", "Səhlalı", "Dərə yurdu", "Yamaş yurd", "Yəhər yurdu", "Güney yurd" adlanan yerlər, eləcə də Batabat yaylağı ab-havasına, buz bulaqlarına, gen-bol örüşlərinə görə ən gözəl yaylaqlar məskənidir. Rayon sakinləri ilə yanaşı, hər il Şərurdan, Babəkdən, Kəngərlidən gəlib yazın sonlarından ta payızın ortalarınadək obalarını qurub qoyun-quzu sürülərini bu yerlərdə bəsləyənlər var. Obaların sürüləri ilə kəndlərin sürüləri bir-birinə qarışıb biri anasını, digəri balasını axtaran qoyun-quzunun mələşməsi dağlarda, dərələrdə əks-səda verəndə çoban heybəsindən tütəyini çıxarar. "Qoyunhəngi" deyilən havanı çalar, bu zaman sapı qırılıb ətrafa dağılan mirvarilər kimi yamaclara, dərələrə səpələnən qoyun-quzu öz çobanının "avazını"



seçərək qarışdığı sürüdən elə ayrılıb səs gələn tərəfə üz tutar ki, kənardan baxıb, bu möcüzəyə məəttəl qalarsan. Belə anda düşünürsən ki, həqiqətən, çobanlıq peşəsinin özünəməxsus sevdaları vardır. Burada Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərində Zəhrabəyimin kefini açmaq üçün çoban Zamanla bağlı Qənbərin söhbətini də xatırlatmaq yerinə düşər: "Xanımcan, and olsun Allaha, bir dəfə mən özüm təəccüb qaldım. Günorta zamanı idi. Qoyunları çobanlar aparırdılar "Qızlar bulağı"na. Biz də yoldaşlarımıznan oturmuşduq Kəklik təpəsinin yamacında, qoyunlara baxırdıq. Bax bu qırışmal Zaman da oturmuşdu yanımızda, tütək çalırdı. Bizim qoyunlar da, Zamangilin qoyunları da bulağa sarı getməkdə idi. Birdən Zaman bizə qayıtdı ki, "nə verərsiniz, elə çalım ki, qoyunlar getdikləri yerdə dayanıb, geri qayıtsınlar?" Söz yox, heç kəs inanmadı. Xülasə, nə başınızı ağrıdım, Zaman başladı çalmağa. And olsun sizin əziz canınıza, qoyunlar tütəyin səsini eşidən kimi, elə bil ki, bir şeydən ürkdülər. Eləcə getdikləri yerdə dayandılar, qulaqlarını qırpıtdılar. Elə bil bir şeydən qorxan kimi geri döndülər və quyruqlarını ata-ata, mələşə-mələşə başladılar təpəyə tərəf geri qaçmağa.

Qənbər bunları söyləyib Zamana: "Ədə, çal", – deyir. Zaman başlayır tütəkdə "Çoban-bayatı"nı çalmağa, özü isə oxuyur:

*Biz çobanıq, dağdı, daşdı yerimiz,*
*Yoldaşımız qoyun-quzu sürümüz,*
*Dərs almayıb, haqdı ki heç birimiz,*
*Amma zövqü səfalıdı çobanlar,*
*Qardaşlıqda vəfalıdı çobanlar.*

Ömrünün 20 ilini bu peşəyə bağlayan Şahbuz rayonunun Yuxarı Qışlaq kənd sakini, çoban Vəzir Məmmədov bu barədə deyir: – Tütək çobanın köməkçisidir. Çölün düzündə hara gəldi baş alıb gedən qoyunla nə etmək olar? Bu anda tütək havası haraya çatır, ən uzaqlara gedib çıxan qoyunlar bu havanı eşidən kimi ağızlarını otdan çəkib çobanın ətrafına yığışırlar. Tütək havasına sürünü qurddan, oğrudan etibarla qoruyan çobanın digər köməkçiləri itlər də dinşək kəsilər. Bu itlər daim sürünün yanında olar, arabir çobanın ayaqlarına dolaşaraq öz sədaqətlərini göstərməklə sürünü qorumağa hər an hazır olduqlarını bildirərlər.

Babək rayonunun Qahab kəndində yaşayan, ömrünü bu peşəyə bağlayan Xaliq Bağırov isə çobanlıq peşəsi haqqında bunları deyir: – Təcrübəli çobanlar obaşdan ta günorta vaxtınadək sürünü otararkən ona su verməzlər. Qoyunun duyuq düşmədiyi yerdə topa-topa döyülü duz komaları qoyarlar. Heyvan duza çatıb, "duzunu alar". Su isinməmiş sərin sudan doyunca içərlər. Odur ki, otdan doymazlar. Yedikcə kökələr, gümrah olarlar. Peşəsinə ürəkdən bağlı olan çobanlar qoyun-quzunun, keçinin "dilini" bilməkdə də böyük təcrübəyə malikdirlər. Elə çobanlar vardır ki, sürüyə baxan kimi hansı heyvanın qüsuru, xəstəliyi olduğunu müəyyən edə bilirlər.

Xaliq deyir ki, atababadan qoyun-keçinin rənginə, əlamətinə baxıb onları "qaşqa", "qumral", "diziqara", "gözüqara", "ağqarabaş", "narınc" deyə çağırarlar. Onlar qoyunun təz nəfəsə gəldiyini də deyərdilər. Ona görə də məsləhət bilərdilər ki, qoyunları gözdəniraq yerdə saxlayın. Həyətə gəlib-gedən onları görməsin.

Ulu "Dədə Qorqud" dastanımız təxəyyülümüzdə əsl çoban obrazını yaradan mənbədir. Dastandan güclü, qüvvətli, cəsarətli, Oğuz elinə düşmənlər hücum edən zaman yurdunun müdafiəsinə qalxan, düşmənin hərbəzorbasından qorxmayan, onların təklif etdiyi var-dövlətdən imtina edən Qaraca çoban obrazı ilə tanış oluruq. Hər atanda on iki batman daş atan, atdığı daş yerə düşməyən, düşdüyü yerdə üç ilədək ot bitməyən, sapandının qorxusundan sürüsünə qurdquş yaxın düşə bilməyən bir çoban obrazıdır Qaraca çoban. Bu gün də yurdumuzun hər qarış torpağını göz bəbəyi kimi qorumağa qadir, elin malını sədaqətlə mühafizə edən onlarla "Qaraca çoban"ı var. Qoyunun ağ, saçaq yunundan toxunan corabı ayağına, köynəyi əyninə geyinən, keçi qəzilindən hazırlanan keçədən xüsusi paltarla və papaqla özünü yazın-payızın sazağından qoruyan, süd doğramasından, kərədən, xamadan, bulamadan yeyib gözünə nur, dizinə qüvvət gətirən, payızın sonlarında erkək qoyunlarının ən gəlimlisindən qovurma bişirdib qışboyu yeyərək güc-qüvvə toplayan çobanlar elin malını, sərvətini bunların hesabına qoruya bilirlər. Özlərinə yaxşı baxırlar ki, elin malına da baxa bilsinlər.

Bütün bunların sayəsində dövlətimizin istehsalla məşğul olan insanlara qayğısının göstəricisi olan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına, bazarlarımıza onlarla çeşiddə heyvandarlıq məhsulları çıxarılır. Kəndlərimizdə hər evdə qışa vedrələrlə yağ, qovurma, pendir tədarük edilir. Yaylaqlarımızdakı obalardan köç vaxtı maşınlara bidonlarla yağ, xama, pendir yığılır.

Yazdan payıza dağlarımıza-düzlərimizə qoyun-quzu sürülərinin qatdığı gözəl mənzərələri seyr edənlərin də sayı-hesabı olmur. Hələ, üstəlik, bircə dəfə çobanın tütəkdə səsləndirdiyi "Qoyunhəngi" havasını, "Çoban-bayatı"nı dinləyib, qoyun-quzunun dağların zirvəsindən yamaca – çobana tərəf qaçışını izləyə-izləyə bu həzin musiqinin sehrinə düşüb ötüb keçən günləri göz önünə gətirənlərsə, hər dəfə bu yerlərdə olarkən yenidən həmin istəkdə olurlar: çoban, bir tütək çal, mələşən quzular yamaca ensin...

**Mətanət MƏMMƏDOVA**

## Xalçaçılıq sənəti üzrə tədris-hazırlıq kursuna 58 nəfər cəlb olunub

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 fevral tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması istiqamətində işlər davam etdirilir, istehsal müəssisəsinin kadr təminatı diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Naxçıvan Regional Peşə Tədris Mərkəzində keçirilən tədris-hazırlıq kursu davam edir. "Azərxalça" Açıq Səhmdar Cəmiyyətindən dəvət olunmuş mütəxəssisin iştirakı ilə keçirilən kursa bu günədək 58 nəfər cəlb edilib ki, onlardan 25 nəfəri tədris proqramını artıq tam mənimsəyib.



Kursun təşkili xalça istehsalı müəssisəsinin kadr təminatı, kursu müvəffəqiyyətlə bitirənlərin məşğulluğunun təmin olunması, həmçinin Naxçıvanda tətbiqi xalq sənəti növü kimi xalçaçılıq ənənələrinin təbliği baxımından mühüm əhəmiyyətə malikdir. Qeyd edək ki, tədris-hazırlıq kursu hana, avadanlıq və xammalla, eyni zamanda xalçaçılıq sənətinə dair müvafiq ədəbiyyat və dərsliklərlə, elektron çeşnilərlə təmin edilib. Kursun yekununda iştirakçılara "Azərxalça" tərəfindən sertifikatlar veriləcək və həmin toxucular xalça istehsalı emalatxanasında işlə təmin ediləcəklər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Təmizlik aksiyası keçirilib



*Şahbuz Rayon Gənclər və İdman İdarəsinin və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Su Anbarının ərazisində "Təmiz ekologiya – sağlam həyat" devizi altında təmizlik aksiyası keçirilib.*

Aksiya insanların ətraf mühitin mühafizəsinə münasibətini dəyişmək, ictimaiyyətin diqqətini ekoloji problemlərin həllinə yönəltmək, əhalinin bu sahədə şüur və təfəkkürünü inkişaf etdirməklə təbiəti qorumağın mümkünlüyünü diqqətə çatdırmaq, eyni zamanda gənclərin ətraf mühitlə qarşılıqlı əlaqəsinə dair bilik və təcrübələrini artırmaq və onlarda ekoloji mədəniyyəti formalaşdırmaq məqsədilə təşkil edilib.

20-dən artıq könüllü gəncin iştirak etdiyi aksiyada iştirakçılar su anbarının ətrafında təmizlik işləri aparıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Bütün ölkə gənclərini müsabiqəyə dəvət edirik

Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar "Naxçıvan Gənclər Paytaxtıdır" mövzusunda gənclər arasında "Facebook" və "Instagram" sosial şəbəkələrində onlayn fotomüsabiqə keçiriləcəkdir.

***Müsabiqənin keçirilməsində məqsəd:***

-Naxçıvan Muxtar Respublikasının təbliği və təşviqi:

-muxtar respublikada yerləşən turizm məkanlarının, tarixi abidələrin, bağların və xiyabanların, yeni tikilən körpülərin, yolların, əyləncə və istirahət mərkəzlərinin, salınmış parkların, şəhərciklərin, idman obyektlərinin, təhsil müəssisələrinin fotolar vasitəsilə tanıdılması;

-gənclərin muxtar respublikanın sosial şəbəkələrdə tanıdılmasında və təbliğində fəallığının artırılması və istedadlı gənclərin üzə çıxarılması.

Müsabiqə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunur.

***Müsabiqədə iştirak:***

Müsabiqədə Azərbaycan Respublikasında, o cümlədən Naxçıvan Muxtar Respublikasında yaşayan, yaşı 18-29 arasında olan bütün Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

***Müsabiqəyə təqdim olunan fotolara aid tələblər:***

1. Müsabiqədə iştirak etmək üçün fotoşəkillər 5-30 sentyabr 2018-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin *"nmr_gencler_ve_idman_nazirliyi"* "Instagram" və *"Naxçıvan MR Gənclər və İdman Nazirliyi"* "Facebook" səhifələrinə göndərilməlidir.
2. Müsabiqədə iştirak edəcək müəlliflər ən çoxu üç fotoşəkil təqdim edə bilərlər (daha çox fotoşəkil təqdim edən iştirakçının ilk üç fotoşəkili paylaşılacaq).
3. Müsabiqəyə təqdim olunmuş fotoşəkillər haqqında qısa məlumat yazılmalıdır.
4. Fotoşəkillər 1 oktyabr 2018-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin "*nmr_gencler_ve_idman_nazirliyi*" "Instagram" və "*Naxçıvan MR Gənclər və İdman Nazirliyi*" "Facebook" səhifələrində paylaşılacaqdır.
5. Müsabiqə 4 oktyabr 2018-ci il tarixdə saat $17^{00}$-dək davam edəcəkdir.
6. Fotomüsabiqə qaliblərinin mükafatlandırılması iki nominasiya üzrə "Facebook" və "Instagram" sosial şəbəkələrində aparılacaq.
7. Hər iki nominasiya üzrə paylaşılan fotolardan ən çox bəyənilən üç fotoşəklin müəllifi mükafatlandırılacaqdır.
8. Əgər paylaşılan fotoların bəyənilmə sayı bərabər olarsa, bərabər olan fotoların yerləri münsiflər heyəti tərəfindən müəyyənləşdiriləcəkdir.
9. Fotomüsabiqə qaliblərinin mükafatlandırılması 5 oktyabr 2018-ci il tarixdə saat $15^{00}$-da Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyində keçiriləcəkdir.

Qaliblərin müəyyənləşdirilməsi üçün aşağıdakı qaydada yerlər müəyyən edilir:

***"Facebook" sosial şəbəkəsi üzrə:***

*Bir-I yer*
*Bir-II yer*
*Bir-III yer*

***"Instagram" sosial şəbəkəsi üzrə:***

*Bir-I yer*
*Bir-II yer*
*Bir-III yer*

Müsabiqədə qalib olmuş fotoşəkillərin müəlliflərinə təşkilatçı tərəfindən diplom və qiymətli hədiyyələr təqdim ediləcəkdir.

***Əlaqə telefonu: (036) 544-50-06***

### İtmişdir

Rəsulova Zəhra Nəcəf qızının adına olan JN-298B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Şahtaxtinski küçəsi, döngə 1, ev 3-də yaşamış Bədəlov Məmməd Sarı oğlunun adına olan 1756 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Muğanlı kənd sakini Mahmudov Musa Adil oğlunun adına olan JN-195 inventar nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 622